https://doi.org/10.59849/2310-5399.2025.1.15

**UOT 78.08:801.81**

**Köçərli İradə**
*sənətşünaslıq doktoru, professor*
*AMEA Memarlıq və incəsənət institutu*
*(Azərbaycan)*

*i.kocharli@gmail.com*

# XALQ MAHNILARINDA YAŞANAN TƏBİƏT

**Xülasə.** Məqalə Azərbaycan xalq musiqisində təbiətin mövqeyini tədqiq edir. Təbiət və insan arasındakı harmoniyanın xalq mahnılarında əks olunduğu vurğulanır. Dağlar, bulaqlar, gül-çiçəklər kimi təbiət obrazlarının xalq musiqisində mərkəzi rola malik olduğu qeyd olunur. Xalq yaradıcılığı təbiət gözəlliklərini təsvir etməklə yanaşı, həm də təbiəti qorumağın əhəmiyyətini vurğulayır. Yazının əsas məqsədi təbiət və musiqi arasındakı qarşılıqlı əlaqəni və bu harmoniyanın insan yaradıcılığına təsirini açıqlamaqdır.

**Açar sözlər:** Təbiət, xalq mahnıları, harmoniya, musiqi, ilham.

**Giriş.** Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız... (Heydər Əliyev).

Ana təbiət… Azərbaycan xalqı bizi əhatə edən təbiətə bu şəkildə müraciət edir. Bu ifadə ilə təbiəti Ana qədər kutsallaşdırır.

Böyük yaradan təbiəti hədsiz dərəcədə gözəl, min bir rəngli, düşündürücü, sirlərlə dolu yaradıb: əsrarəngiz mənzərələr, uca dağlar, yaşıl, sıx meşələr, güllü-çiçəkli çəmənlər, mavi dənizlər, firuzə boyalı göllər, axar gur çaylar, buz bulaqlar, ucsuz-bucaqsız səhralar, möcüzəli buzlaqlar… Bizi isidən Günəş, bütün varlıqlara can verən Yağış, havamızı təmizləyən, bizi sığallayan Külək, bizə ruzi verən Torpaq… və bütün bunların mərkəzində dayanan İnsan… Yaradan İnsanı-Adəmi gildən və torpaqdan yaradıb. Bu Yer və bu torpaq – həyatın başlanğıcıdır.

Ana Təbiət – hər birimiz üçün əbədi bir ilham mənbəyidir. Təbiətdə hər bir şey harmoniya və ilahi qaydada yaranmışdır, əzəli və əbədi bir tarazlıq halındadır. Təbiət özü sanki canlı bir poeziyadır, onun ən kiçik zərrəciyi belə qiymətlidir və özəl gözəlliyə malikdir. Təbiət yalnız gözəl mənzərələri ilə bizi əhatə etmir, o bizə daim yaşamaq, yaratmaq üçün sönməz bir həvəs və ilham verir.

**Əsas materialının şərhi.** Təbiət və Musiqi – bir-birilə qarşılıqlı münasibətdə olan iki böyük varlıqdır. Onlar birlikdə xüsusi bir harmoniyada yaranıb və insanlara sonsuzsevinc hissləri, zövq və rahatlıq gətirir. Hələ qədim zamanlardan təbiət səsləri insanları düşündürüb, onlarda öz hiss və həyəcanının sədasını eşitməyə vadar edib. Zaman keçdikcə, bu təbiət ünsürləri insanların iç dünyasının səsinə dönüb, onlarda yaratmaq eşqi oyadıb və beləliklə, musiqinin başlanğıc səslərinə çevrilib. Bu baxımdan, İnsan təbiətə bağlıdır, daim onunla ünsiyyətdədir, təbiətin vurğunudur, daim təbiətin sirli və füsunkar gözəlliklərini vəsf edir, ona nəğmələr vəşeirlər qoşur.

İnamla demək olar ki, yaratdığı mahnıları, aşıq havaları, mövsüm nəğmələri ilə,Azərbaycan xalqı qədər təbiətə bağlı olan, bəlkə də, başqa bir xalq yoxdur. Demək olar ki, xalq mahnılarımızın əksəriyyətində təbiət mövzuları ana xətt kimi keçir, obrazlılıq və məzmunun mərkəzində dayanan əsas amilə çevrilir. İnsan təbiətlə təmasda verilir – dağ, bulaq, bağ-bağça, gül-bülbül, əkin-biçin, ceyran-maral və bu kimi obrazlarla bağlanır və mövzunun poetikləşməsində, daha romantik bir ovqat almasında xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan xalqının, ümumilikdə, türk xalqlarının epik yaradıcılığında da təbiət obrazları rəmzləşərək önəmli bir yer tutur: ölməzlik dağı, qaba ağac, dirilik ağacı, dirilik bulağı (fitonimik obrazlar), güc-qüvvət rəmzi olan buğa, qurd, qoç, at obrazları (zoomorfik obrazlar) və s. Mənbələrə görə, türk mifologiyasında təbiət tanrısı Yaşıl kağan hesab olunur, hansı ki, təbiəti qoruyur, onun yaşıllaşmasını, hər yeni doğuşunu – yazın gəlişini nizamlayır. Hətta yaşıl sözünün "yaş" kökündən törədiyi və yaşam, yaşamaq sözü ilə eyni mənaya malik olduğu, eyni kökdən yarandığı söylənilir. Türk xalqlarının dünyagörüşündə və yaradılış sistemində insan və təbiət bütöv bir tam olaraq görülür. Oğuz xan haqqındakı görüşlər bu fikirlərin dürüstlüyünə kifayət edir: Oğuz Kağan AyXatundan doğmuşdur; Göydən şüa ilə düşən ilk qadınından Gün, Ay, Ulduz xan adlı, Yerdən doğmuş Qaba ağacın qoynundakı qadınından Göy, Dağ, Dəniz xan adlı oğulları olmuşdur.

Qeyd edək ki, bu səpkili inanclar sistemi insanların dünyagörüşü və düşüncə tərzində möhkəm yer salmış və zaman içərisində yeni-yeni bədii sənət əsərlərinin, musiqi nümunələrininyaranmasının əsas özülü və səbəbi olmuşdur. Bir məsələyə də diqqət çəkmək istərdik. Məlumdur ki, Şuşa daim məşhur musiqiçilərin, gözəl səsli xanəndələrin yaşayıb-yaratdığı, ilhamlı nəğmələr qoşduğu bir şəhər olmuşdur. Çünki bu dağlar qoynunda yerləşən bu diyarın suyu, havası büllur kimi təmizdir, torpağı safdır. Məhz bu amillər sağlam, dərin və geniş nəfəsli, ecazkar səsli nəğməkarların yetişməsinin əsas şərtidir. Bu – bir daha təbiətin insana, onun yaradıcı keyfiyyətlərinə təsirinin ən bariz nümunəsidir.

“Azərbaycan xalq ədəbiyyatının, o cümlədən, aşıq sənətinin inkişafında, onun hadisələrini ideallaşdırmaq mühüm yer tutur. Bu isə təbiidir. Xalqın bədii düşüncəsi özünün ilk qaynağını təbiətlə insanın təmasından götürmüşdür. Hələ mifoloji mənəvi inkişaf mərhələsində ulduzlar aləminin sirli-sehrli varlığı, təbiətin ecazkar gözəllikləri ideallaşdılrılırdı. Getdikcə təbiət xalqın estetik idealının əsas məhvərindən birinə çevrilir. Təbiət bir tərəfdən maddi nemətlər ocağı kimi tərənnüm edilir, digər tərəfdən isə təbiət estetik duyğuların tərbiyəçisi, gözəllik ocağı kimi vəsf edilir… El aşıqları təbiət gözəlliyinin insana ecazkar təsirini müxtəlif variantlarda öz dinləyicilərinəçatdırırlar. Əsasən gözəlləmələrdə vəsf olunan gözəlin təbiət gözəlliyi ilə müqayisəsinə fikir verilir. Aşıq insan varlığının uca olduğunu yaxşı anlayır, insanın həm fiziki, həm mənəvi gözəlliyini ülviləşdirir. Bununla belə, insanı təbiətdən ayırmır” [3, s. 58]. Bu fikirlər insan və təbiət münasibətlərinin el nəğməkarlarının yaradıcılığında özünü göstərən ifadəsini dəqiq şəkildə əks etdirir.

Azərbaycan xalq mahnılarının əsas başlıca mövzusu “dağ” konseptidir. “Uca dağlar”, “Dağda bitər lalələr”, “A dağlar”, “Ay uca dağlar başında”, “Dağlarda çiçək” və digər xalq mahnıları dağ mövzusunu adında daşıyır. Lakin,bu sıra,dağ mövzusunu başlığında daşıyan nümunələrlə bitmir. Digər xalq musiqi örnəklərində də bu mövzu ana xətt kimi nəğmə boyu izlənilir. Məlum olduğu kimi, Azərbaycan el nəğmələri içərisində lirik, sevgi və məhəbbət mövzusunda olan mahnılar üztünlük təşkil edir: sevgi motivləri məhz təbiət qoynunda baş verir. Gənc oğlan öz sevgilisini dağda görüb ona vurulur, onunla gizli-gizli dağda görüşür, dağa səsləyir, dağda gəzən ceyrana bənzədir və s. Xalq mahnılarında dağ təsvirləri də inanılmaz dərəcədə mənalı və dəqiqdir: yurdumuzdakı dağların çox uca – həm “çınqıllı, daşlı”, “qarlı-qarsız” və ya “yaylım-yaylım” olması, dağ qızılgüllərinin “oylum-oylum”

bitməsi, "dağlara çən düşməsi" poetik dillə təsvir olunur və mahnının əsas ovqatının və melodik-ritmik strukturunun yaranmasına zəmin hazırlayır. Uca dağlar başında "ceyranların gəzişərək yol eyləməsindən", dağların həm səfalı-vəfalı olmasından, dağda yovşanların, lalələrin, çiyələyin bitməsindən bəhs olunur, qoyun sürülərinin otlaması və digər mənzərə və gözəllikləri vəsf edilir. Sevgi münasibətləri, təsvir olunan hadisələr dağlarda – məhz yaşıl təbiət qoynunda baş tutur.

Xalq mahnılarında dərya kənarında, meşədə, çay, arx və ya bulaq başında təsvir olunan mahnılar da çoxdur. Bunlar içərisində "bulaq konseptli" havalar xüsusi bir qrup təşkil edir: "Söhbət saz ilə", "Getdim gördüm bulaqdadır", "Qarabağın maralı", "Üç gündən bir", "Getmə bulaq başına", "Çeşmə-çıraq başına", "Sudan gələn sürməli qız" bu mövzulu mahnılara misal ola bilər.

"Bağ-bağça-qızılgül, gül-bülbül" konsepti bütün Şərq poeziyası və musiqisi üçün əsas mövzulardan biridir. Bu mövzuda klassik şairlərin müxtəlif janr və formalarda yazılmış sonsuz sayda şeirləri vardır. Azərbaycan xalq yaradıcılığı da bu mənada istisna deyildir. Xalq mahnılarının mətnlərində bu mövzuda çoxlu sayda içdən gələn, poetik gözəlliyə malik misralar vardır və onlar mahnının əsas ovqatını, milli hiss və semantik özəllklərini ortaya qoyan əsas özüllərdən biridir. Mahnıların melodik-intonasiya özəyi isə məhz həmin ab-havanın təsiri altında yaranır və həmin təsirdən qaynaqlanan hiss və həyəcanı yetərincə ifadə edir. "Qızılgül", "Mən gülü dəstə bağlaram","Bağa girdim gül dərdim, Gülü yara göndərdim" (Uca dağlar), "Gül çiçəyi dərərəm, Əlvan çələng hörərəm" (Nar-nar), "Bağçada güllər, Oxur bülbüllər", "Bülbüllər oxur, cəh-cəh edir", "Xarı bülbül" (Sarı bülbül), "Ay dili dili", "Qızıl gül", "Sona bülbüllər" və bir çox digər mahnılar bu qəbildəndir.

Azərbaycan xalq yaradıcılığında təbiət qoynunda yaşayan çöl quşları, meşə və dağ heyvanları da musiqiçilər və şairlərtərəfindən geniş vəsf olunan mövzu və obrazlardır. Bülbüllə yanaşı, kəklik, yaşılbaş sona, leylək, göyərçin, quba qazlar, laçın, tovuz quşu, üç telli durna, kəklik və b. kimi pərvaz edən quşlar xalq mahnılarında tez-tez təsvir edilən obrazlardır və bu səpkili xalq havalarına da çoxlu sayda misallar gətirmək mümkündür.

Ceyran, ahu balası, maral isə xalqımız tərəfindən gözəllik rəmzi kimi qəbul edilir və hətta dilimizdə Azərbaycan qızlarına qoyulan, müraciət edilən və sevilən ad kimi işlənilir. Gözəl qamətli qızlar daim zərif görkəmli cey-

rana bənzədilir, iri qara gözləri isə xanımların gözləri ilə müqayisə edilir. "Azərbaycan maralı", "Qarabağın maralı", "Şuşa ceyranı", "Gəl-gəl, ahu balası", "Ahu kimi", "Aman ovçu" mahnılarında bu təbiət obrazları üstünlük təşkil edir və insanla eyniləşdirilir.

Məqalənin başlığını məşhur mahnının ilk misrasından götürmüşük: "Gül açılanda yaz olar, bəh-bəh-bəh!"[1] Həqiqətən bu mahnı səslənəndə sanki təbiətin gözəlliyindən cuşa gəlmiş insanın iç dünyasından qopan hisslər oyanır və dilə gəlir. Melodiyanın zil səslərdən başlayaraq əvvəlcə yuxarı – ən yüksək zirvə məqamına çatması ("segah" məqamı, əsas tonun zili), sonra isə aşağı istiqamətdə pillə-pillə (sekvensiyalarla) hərəkət etməsi, misra sonunda "bəh-bəh" nidasının üç dəfə təkrar edilməsi insanın təbiətdən aldığı zövqü, məmnunluq hissləri və həzzi olduqca dəqiq şəkildə ifadə edir. Mahnı yalnız iki musiqi cümləsindən ibarətdir. I melo-misraüç dəfə ayrı-ayrı poetik misralarla oxunaraq səslənir və sanki təbiətin gözəlliyindən yaranan coşqun hissləri təkrar-təkrar oxumaqla daha da qabardır, həyəcanlı, ehtiraslı və təsirlişəkildə ifadə edir (əsas tonun kvintasına – "şikəstə" pilləsinə dayaq edir). Daha sonra yekun musiqi cümləsinin (II cümlə) səslənməsi ilə hisslər aləminin içində məst olan bir insanın keçirdiyi duyğular tərənnüm olunur: təbiətin bu gözəlliyi içərisində gənc aşiqin hiss və həyəcanı sanki dilə gəlir – "zabul segah" məqamına xas melodik sədalar altında "sevirəm səni" deyir və "mayə" səsində tamamlanır. Xalq mahnısı söz və musiqinin qırılmaz vəhdəti ilə parlaq bir obrazlılıq yarada bilir. Həqiqətən, şairlərin, söz ustalarının vəsf etdikləri kimi, yaz gələndə güllər açır, quşlar cəh-cəh vurur, təbiət al-yaşıla bürünür, ağaclar çiçək açır... günəş daha tez-tez göy üzündən boylanaraq qəlbimizi isidir, torpağa nur çiləyir... Göy üzünə baxıb, dərindən nəfəs alıb bu sözləri deməkdən savayı, qiy vurub oxumaqdan savayı heç nə qalmır: bəh-bəh-bəh!!!

Bu əsrarəngiz el nəğmələrinidoğma Azərbaycan xalqı – zərif və saf duyğularla yaşayan, yaşıldünyanı sevən və ona dəyər verən yetənəkli insanlar yaradıb...

İnsan – Tanrı tərəfindən bütün canlılardan üstün yaradılan, düşünən, elmi ixtiralar, bədii kəşflər yaradan, təbiəti yaşadan və zənginləşdirən bir varlıqdır. Bununla belə, bəzən insan özü də bilmədən, bəzən isə bilərəkdən təbiətin

[1] Bu xalq mahnısının Kamrabəyim (Kamiləbəyim Həsən qızı Hüseynova – qarmon, piano ifaçısı, müğənni – 1900-cü ildə Şuşada doğulmuşdur,) tərəfindən yazıldığı iddia edilir. Məlumatı Kamrabəyimin nəvəsi Şəmsə Gülməmmədova vermişdir.

qəniminə çevrilir. O, özünün yaratdıqları ilə təbiətə ziyan vurur, Ana təbiəti fəlakətə sürükləyir. Zavod və fabriklərin tüstüsü, məişət tullantıları, dənizlərə, çaylara axıdılan zəhərli maddələr, çirkab suları, qırılan meşələr və qanlı müharibələr, yaşadığımız Yeri az qala ikiyə böləcək qədər güclü dağıdıcılar... Yer Kürəsinə dəyən ziyan – əslində hər birimizə atılan ölümcül zərbədir. Yer kürəsi bütün insanların – ümumi evidir vətəbiətin harmoniyasını qorumaq, gələcək nəsillərə əsrarəngiz bakirəliyi və gözəlliyi ilə birlikdə ötürmək hamının borcudur.

Təbiət sözünün bizə doğma olan və unutduğumuz bir adı da vardır – Doğa. Fikrimizcə, bu ad əzəli olanı – Tanrı tərəfindən ilkin doğulanı daha doğru və doğma bir dillə ifadə edir.Gəlin Doğanı qoruyaq!

Suyun, bulağın, arxın, çayın, gölün, dənizin qədrini bilək ki, "Getdim gördüm bulaqdadır" oxuyaq və bu gün "su qiyməti"nə aldığımız və içdiyimiz suyu sabah "qızılqiyməti"nə almayaq. Bulaqlarımız qurumasın!

**Nəticə.** Təbii fəlakətlər olmasın ki, "Apardı sellər Saranı" deməyək, "Gül bağçalar"ı zümzümə edək. Havanı kirlətməyək ki, "Süsən sünbül" bitirək, "Əs, ey gilavar", "Ay dərya kənarında" söyləyə bilək.İqlim dəyişikliyi olmasın ki, "Abı yaşıla bürünür", "Əcəb səfalı dağlar", "Söhbət saz ilə" oxuyaq, "Qubanın ağ alması"nın dadını-ətrini duyaq.

Bəlkə yenidən Doğaya alqış-dua edək, öygülər oxuyaq, yalvarışlarımızı çatdıraq, qədim inanclarımızı dirçəldək, günahlarımızı etiraf edək?

Gəlin bu əsrarəngiz təbiəti qoruyaq ki, ondan daim zövq alaq, həyatda yaşamaq arzusunu itirməyək, təbiət gözəllikləri qoynunda var olaq, ilham alaq, yaşayıb yaradaq, mahnılar qoşaq! Yay gəlsin, payızla əvəzlənsin, qış olsun, yaz açılsın! Biz də içdən gələn bir səslə ürəklə oxuyaq:

*Gül açılanda yaz olar, bəh-bəh-bəh!*
*Bülbül bağlardasəs salır: cəh-cəh-cəh!*
*Güllərin ətrini alır: bəh-bəh-bəh!*
*Musiqi səsi ucalır: bəh-bəh-bəh!*

**ƏDƏBİYYAT:**

1. Azərbaycan xalq mahnıları. I cild. – Bakı, 1981.
2. Azərbaycan xalq mahnıları. II cild. – Bakı, 1982.
3. Əfəndiyev O. Zəngəzur folkloru: kollektiv yaddaşdan metaforik düşüncəyə. – Bakı, 1983.
4. Rüstəmov Səid. Azərbaycan xalq mahnıları. – Bakı, 1967.

**Irada Kocharli** ***(Azerbaijan)***

**NATURE REFLECTED IN FOLK SONGS**

The article explores the role of nature in Azerbaijani folk music. It emphasizes the harmony between nature and humansreflectedinfolksongs. Natural imagery such as mountains, springs, and flowers plays a central role in folk creativity. Folk art not only portrays the beauty of nature but also stresses the importance of its preservation. The main purpose is to reveal the inter play between nature and music and itsinfluence on human creativity.

**Key words:** nature, folksongs, harmony, music, inspiration.

**Ирада Кочарли** ***(Азербайджан)***

**ПРИРОДА, ОТРАЖЕННАЯ В НАРОДНЫХ ПЕСНЯХ**

Статья исследует место природы в азербайджанской народной музыке. Подчеркивается гармония между природой и человеком, отражённая в народных песнях. Природные образы, такие как горы, родники, цветы, играют центральную роль в народном творчестве. Народное искусство не только описывает красоту природы, но и акцентирует внимание на её защите. Основной целью работы является раскрытие взаимосвязи между природой и музыкой и их влияния на творчество человека.

**Ключевые слова:** природа, народные песни, гармония, музыка, вдохновение.